# Əqidəsi və amalı xalqa, dövlətçiliyə layiqli xidmət olan dahi Lider

*Ulu Öndər Heydər Əliyev epoxası Azərbaycan tarixinin quruculuq, yaradıcılıq, siyasi sabitlik və milli təkamül kimi əsas inkişaf istiqamətlərini özündə birləşdirməklə, sözün əsl mənasında, milli intibah dövrü kimi xarakterizə olunur. Heydər Əliyev XX əsr Azərbaycan tarixinin ən parlaq və dahi şəxsiyyətidir. Siyasi liderin dövlətçilik fəaliyyəti, strateji baxışı və xalqına olan sarsılmaz sevgisi Azərbaycan Respublikasının müstəqil, güclü və sabit dövlətə çevrilməsində həlledici rol oynayıb.*

Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə sənayeləşmə, təhsil, mədəniyyət və şəhərsalma sahələrində böyük irəliləyişlər əldə olunub. Onun təşəbbüsü ilə yüzlərlə zavod, fabrik, məktəb və mədəniyyət ocaqları tikilib. Ən əsası isə, azərbaycanlılar SSRİ-nin rəhbər strukturlarında təmsil olunublar. 1993-cü ildə isə xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev bütün imkanları səfərbər edərək ölkəni xaosdan, anarxiyadan, parçalanıb məhv olmaqdan qorudu. Müstəqil Azərbaycan Respublikasının inkişaf strategiyasını müəyyən etdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı. Bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli məhz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə qoyulub. XX əsrin sonlarından etibarən azərbaycançılıq ideyasının sistemli şəkildə dövlət ideologiyası səviyyəsinə yüksəldilməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev azərbaycançılığı yalnız bir ideya deyil, dövlət siyasətinin əsas istiqaməti kimi qəbul edib, bu anlayışı ölkənin daxili və xarici siyasətində əsas dayaq nöqtəsinə çevirib. Ümummilli Lider siyasi fəaliyyətinin bütün mərhələlərində azərbaycançılıq ideyasına böyük önəm verib, qeyd edib ki, azərbaycançılıq bizim milli fəlsəfəmizdir. Əlbəttə ki, bu ideya milli həmrəylik, vətənə sədaqət, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunması prinsiplərinə əsaslanır. Eyni zamanda Azərbaycanda yaşayan müxtəlif etnik və dini qrupların vahid dövlətçiliyə sadiqliyini təşviq edir. Fenomen şəxsiyyətin zamanı dərk və iti qərar qəbul etmək qabiliyyəti xalqın taleyini dəyişdi, dövləti və dövlətçiliyi aydın yola çıxardı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə təhsil sistemində Azərbaycan tarixi və mədəniyyətinə dair fənlərin tədrisi gücləndirildi, Azərbaycan dilinin dövlət dili statusu möhkəmləndirildi.

Azərbaycanda fikir plüralizminin və söz azadlığının inkişafı Ulu Öndər Heydər Əliyevin cəmiyyətdə demokratik prinsiplərin gücləndirilməsinə yönəlmiş siyasətinin əsas prioritetlərindən idi. Milli mətbuatın məhz demokratik təməllərə əsaslanaraq inkişafı gənc müstəqil Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini gücləndirərək, dünyəvi dəyərlərə inteqrasiyasını sürətləndirdi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bununla müstəqilliyini bərpa etmiş və yenidən azadlığına qovuşmuş Azərbaycanın mətbuat həyatında yeni dövrün başlanğıcı qoyuldu. Ulu Öndər Heydər Əliyev mətbuatın inkişafına böyük diqqət və qayğı ilə yanaşır, müxtəlif düşüncə və baxışların sərbəst şəkildə ifadə olunmasını, fərqli ictimai və siyasi mövqelərin cəmiyyətdə özünə yer tapmasını demokratik inkişafın fundamental şərti kimi qiymətləndirirdi. Məhz Heydər Əliyevin rəhbərliyi ilə ölkədə kütləvi informasiya vasitələrinin fəaliyyətinə geniş imkanlar yaradılmış, senzura ləğv olunmuş, jurnalistlərin və vətəndaş cəmiyyəti institutları formalaşdırılmışdı. Bu siyasət nəticəsində cəmiyyətdə sağlam tənqid mühiti, açıq dialoq və ictimai diskussiyalara şərait yaranmışdır, bu da demokratik dəyərlərin möhkəmlənməsində və hüquqi dövlət quruculuğunda mühüm rol oynamışdır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası dövlətçilik anlayışının milli təfəkkür tərzinə çevrilməsində, yeni dövrün tələblərinə uyğun, heç bir qüvvənin təsirindən asılı olmayan müstəqil dövlətin formalaşdırılmasında və əlbəttə ki, nəticə etibarilə Azərbaycanın ümumi strateji inkişafının parametrlərini özündə ehtiva edən tarixi nailiyyətlərdir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ən önəmli istiqamətlərindən biri gənclərin inkişafı, təhsili, vətənpərvər ruhda yetişdirilməsi və cəmiyyətin fəal üzvünə çevrilməsi olub. O, gəncləri yalnız ölkənin siyasi və iqtisadi həyatında deyil, həm də mədəniyyət, təhsil və elm sahələrindəki uğurların təminatçısı kimi görürdü. Onun rəhbərliyi ilə həyata keçirilən bir çox islahatlar gənclərin potensialını üzə çıxarmağa yönəlmişdi. Dahi lider gənclərin hər bir sahədə irəliləmələri üçün mükəmməl zəmin yaratmış və bu, Azərbaycanı daha da inkişaf etdirmək üçün əvəzsiz bir güc olmuşdur. Heydər Əliyev dönə-dönə vurğulayırdı ki, gənclər bizim gələcəyimizdir. Bu baxış onun dövlət siyasətində gənclərə yönəlik məqsədyönlü və ardıcıl tədbirlərlə özünü göstərirdi. Siyasi liderin gənclər siyasəti uzaqgörən, strateji və milli maraqlara əsaslanan bir siyasət idi. Onun bu sahədə gördüyü işlər bu gün də öz bəhrəsini verir. Məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət nəticəsində Azərbaycanda savadlı, fəal, milli ruhda formalaşmış gənclik yetişməkdədir. Ulu Öndər deyirdi ki, mən hər bir gəncə inanıram, güvənirəm və əminəm ki, siz Azərbaycanın gələcəyini daha da parlaq edəcəksiniz.

Ümummilli Liderin ardıcıl apardığı islahatlar yalnız iqtisadi sahəni əhatə etmirdi. Bu köklü dəyişikliklər elm və təhsildə, mədəniyyətdə də böyük sıçrayışlarla nəticələndi. Azərbaycanda elmin inkişafının stimullaşdırılması istiqamətində bir çox mühüm addımlar atıldı. Müstəqilliyin bərpasından sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi idi. Siyasi liderin məqsədyönlü siyasəti nəticəsində azərbaycançılıq ideyasının inkişafında milli-mənəvi dəyərlərə, tolerantlıq ənənəsinə və multikulturalizmə xüsusi yer verilib. Onun rəhbərliyi dövründə milli bayramların bərpası, tariximizin saxtalaşdırılmasına qarşı mübarizə, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və milli diaspor fəaliyyətinin gücləndirilməsi bu ideyanın təbliğində mühüm rol oynadı və ölkənin ictimai-siyasi həyatının bütün sahələrində sürətli inkişafa aparan köklü islahatlara yol açdı. Ümummilli Lider digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. O, ölkələrə xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür, onların problem və qayğıları ilə maraqlanır, onları yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı. Beləliklə, Azərbaycan diasporu yeni bir inkişaf yoluna qədəm qoydu. Bu yolun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirildi və davamlı olaraq həyata keçirilir.

Böyük şəxsiyyət Heydər Əliyevin uzaqgörən müdrik siyasəti dünya ölkələrində Azərbaycanın tanınmasına təkan verdi. Dünyanın hər bir nöqtəsində formalaşmış Azərbaycan diasporu məhz Heydər Əliyevin diaspor quruculuğu siyasətinin məntiqi nəticəsidir. Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanı Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd oldu. Bu gün Azərbaycan diasporu ABŞ, Fransa, Misir, Avstraliya, Gürcüstan, Moldova, Avstriya, İslandiya, Niderland, Almaniya, İspaniya, Norveç, Belarus, İsveç, Özbəkistan, Belçika, İsrail, Polşa, Birləşmiş Ərəb Əmirliyi, İsveçrə, Qazaxıstan, İtaliya kimi onlarla dövlətlərdə fəaliyyət göstərir.

Sağlığında canlı əfsanəyə çevrilmiş, həm siyasi müdrikliyi, həm də xalqına dərin sevgisi ilə yaddaşlarda əbədi iz qoymuş böyük dövlət xadiminin siyasi irsi Azərbaycan dövlətçiliyinin əsas sütunudur. Ümummilli Liderin ideyaları Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



**Sevil MİKAYILOVA,**
**Ümumdünya Parlamentlərarası İttifaqının (IPU) İcraiyyə Komitəsinin vitse-prezidenti,**
**Milli Məclisin deputatı.**